# Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 2019-cu ildə də böyük uğurlar əldə etdi



Azərbaycan Prezidenti İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı müsahibəsində ölkəmizin 2019-cu ildə uğurlu inkişafı, Azərbaycanın daxili və xarici siyasəti, o cümlədən Avropa İttifaqı ilə əlaqələr, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, iqtisadi və sosial inkişaf, enerji və nəqliyyat-tranzit layihələri, milli və dini tolerantlıq, həyata keçirilən islahatlar, parlament seçkiləri və müxalifətlə bağlı cəmiyyət həyatının bütün sahələri üzrə aktual məsələlərə münasibət bildirdi.

Bu fikri AZƏRTAC-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, son illərdə dünyanın ictimai-siyasi, mədəni və idman həyatı ilə bağlı ən vacib hadisələrin təqvimində tez-tez Azərbaycanın adına rast gəlmək olar. Hər il Azərbaycan böyük siyasi, yaxud ictimai forumlara, musiqi festivallarına, idman tədbirlərinə ev sahibliyi edir. 2019-cu il də bu baxımdan istisna olmadı. Bakıda növbəti dəfə Formula 1 yarışları yüksək səviyyədə keçirildi, planetin gimnastika həyatının 2 əhəmiyyətli tədbiri - Bədii gimnastika üzrə 35-ci Avropa və 37-ci dünya çempionatları keçirildi. Paytaxtımız Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının, Qoşulmama Hərəkatının, dünya dini liderlərinin Zirvə görüşlərinə ev sahibliyi etdi. Bütün bunlar müxtəlif millətlər və dinlər arasında dünya miqyasında sülh və anlaşmanın təmin edilməsinə yönəlmiş dialoqun dayanmadan aparıldığı ən əhəmiyyətli qlobal məkanlardan biri kimi Bakının statusunu möhkəmləndirdi. BMT-nin Baş katibinin dediyi kimi, Bakı cəmiyyətlər və mədəniyyətlər arasında körpülər yaradır. Təsadüfi deyil ki, Rusiyanın və NATO-nun ali hərbi komandanlıqları görüş üçün başqa yer deyil, məhz Bakıya üstünlük verirlər.

Deputat qeyd edib ki, Prezidentin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və praqmatik xarici siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada böyük etimad qazanan ölkə, etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Regional güc mərkəzi olan Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bütövlükdə, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir.

S.Fətəliyeva vurğulayıb ki, Azərbaycanın xarici siyasət kursunun ən mühüm prioriteti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normaları əsasında həll olunmasıdır. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə nail olmaq məqsədilə genişmiqyaslı iş aparır. Prezident İlham Əliyev yerli jurnalistlərə müsahibəsində bir daha münaqişənin həlli ilə bağlı dövlətimizin prinsipial mövqeyini bəyan etdi. Bu mövqe ondan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

**"Dövlət başçısı müsahibəsində, həmçinin ölkəmizin sosial-iqtisadi inkişafı, həyata keçirilən islahatlar, o cümlədən kadr islahatları haqqında da fikirlərini bildirdi, eləcə də qarşıda duran vəzifələrdən bəhs etdi.**

**Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 2019-cu ildə də böyük uğurlar əldə edib. Görülən işlər həm də onu deməyə əsas verir ki, bu uğurlar növbəti illərdə də davam edəcək",** - deyə deputat bildirib.

# 2019-cu il sosial sahədə də yaddaqalan olub

*Ekspertlər bildirirlər ki, cari ildə sosial sferada qəbul olunan qərarlar əhalinin sosial müdafiəsinin gücləndirilməsini və yaşayış səviyyəsinin əsaslı şəkildə yüksəlməsini təmin edib*



***Hadi Rəcəbli:***
*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji siyasət kursu Azərbaycanın dinamik inkişafını təmin etməklə yanaşı, ölkəmizin qarşısında yeni perspektivlərin açılmasını şərtləndirib*



***Azər Badamov:***
*Dövlətimiz 2019-cu ildə də insanların sosial rifahının yüksəldilməsi, aztəminatlı və xüsusi həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərə imza atıb*

Məlumdur ki, Azərbaycanda vətəndaşların sosial təminatı, rifahı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son bir ildə də bu sahədə atılan addımlar inqilabi xarakter daşıyıb və ölkəmiz sosial islahatların davamlılığına görə bir sıra beynəlxalq reytinqlərdə ilk sıralarda yer alır. Bir faktı qeyd etmək kifayətdir ki, hətta dünyada iqtisadi böhranın ən kəskin hal aldığı dövrlərdə belə ölkəmizdə sosial islahatlar davam etdirilib və vətəndaşların maddi rifahının yaxşılaşdırılması istiqamətində əsaslı tədbirlər görülüb. Yeri gəlmişkən, dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində bu məsələyə toxunan Prezident İlham Əliyev də bildirib ki, hətta böhranlı illərdə biz sosial sahəyə nəzərdə tutulan vəsaiti azaltmamışıq. Dövlət başçısı qeyd edib ki, bizim bütün işimizin məqsədində Azərbaycan vətəndaşının maraqları dayanır və ildən-ilə Azərbaycan vətəndaşı daha yaxşı yaşamalıdır: **"Bunun üçün həm sosial infrastrukturla bağlı olan layihələr icra edilməlidir, eyni zamanda, vətəndaşların sosial təminatı yaxşılaşdırılmalıdır. Ona görə hesab edirəm ki, bu il biz bu sahədə çox ciddi addımlar atdıq".**

Sözügedən müsahibədə 2020-ci ildə sosial layihələrin davam etdiriləcəyini də vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, gələcək sosial layihələrin həyata keçirilməsi sırf iqtisadi inkişafla bağlıdır və iqtisadi inkişafın, əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrə istiqamətləndiriləcək.

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli bildirib ki, ölkəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, prinsipial, milli maraqlara əsaslanan siyasət nəticəsində güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik ölkəyə çevrilib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji siyasət kursu Azərbaycanın dinamik inkişafını təmin etməklə yanaşı, ölkəmizin qarşısında yeni perspektivlərin açılmasını şərtləndirib. Xüsusilə də, dövlət başçısının rəhbərliyi ilə sosial sahədə sistemli, kompleks xarakterli, fundamental islahatlar həyata keçirilməsi vətəndaşların rifah halının gündən-günə daha da yaxşılaşmasına yol açır: **"2019-cu il, demək olar ki, sosial islahatlar ili kimi yadda qaldı. Bu dövrdə atılan addımlara nəzər salsaq görərik ki, sosial islahatlar, verilən qərarlar, demək olar ki, bütün sosial sferanı əhatə etdi. Hələ ilin əvvəlində problemli kreditlərin həlli ilə bağlı Prezident Fərmanı həm də ölkəmizdə makroiqtisadi sabitliyin təmin olunduğunun, iqtisadi inkişaf templərinin bərpa edilərək artdığının göstəricisi idi və bunu dekabrın 23-də jurnalistlərə müsahibəsində möhtərəm Prezidentimiz də bildirdi. Dövlət başçısı qeyd etdi ki, bu məsələ daim diqqət mərkəzində idi. Sadəcə, artıq dövlətin buna tam gücü və imkanı çatdı və bu problem öz həllini tapdı".**

Millət vəkili qeyd edib ki, 2019-cu ildə maaşların, pensiyaların, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin artırılması, eləcə də digər sosial təminat məsələləri diqqət mərkəzində oldu: **"İlin yekunları ilə bağlı müsahibəsində cənab Prezident bildirdi ki, müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir. Cənab Prezident vurğuladı ki, sosial islahatlar gələn il də davam etdiriləcək. Bu isə bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət Azərbaycanın sürətli inkişafını təmin edib, ölkə qarşısında yeni perspektivlər açılıb. Bütün sahələri əhatə edən kompleks islahatlar Azərbaycanın qüdrətinin daha da artmasına xidmət edir".**

Milli Məclisin deputatı Azər Badamov isə bildirib ki, Azərbaycanın dünyada nümunə kimi dəyərləndirilən inkişaf modelinin ən səciyyəvi cəhətlərindən biri məhz ölkədə ardıcıl şəkildə həyata keçirilən islahatlarla bağlıdır. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq müasirləşməni strateji hədəf kimi müəyyənləşdirən ölkəmiz öz inkişafını, bir qayda olaraq, zamanın dəyişən tələblərinə uyğun qurur. Millət vəkili vurğulayıb ki, iqtisadiyyatın genişlənməsi ilə paralel şəkildə, ölkəmizin maliyyə təminatı da artır. Ölkəmizin dinamik iqtisadi inkişafı həmçinin güclü sosial siyasətlə tamamlanır. Belə ki, milli iqtisadiyyatımızın potensialının artması öz növbəsində sosial sferada bilavasitə insanların həyat səviyyəsinin yüksəlməsinə hesablanan genişmiqyaslı islahatların həyata keçirilməsinə yeni imkanlar açır: **"Dekabrın 23-də cənab Prezidentimiz yerli jurnalistlərə müsahibəsində bildirdi ki, gələcək sosial layihələrin həyata keçirilməsi sırf iqtisadi inkişafla bağlıdır və iqtisadi inkişafın, əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrə istiqamətləndiriləcək. Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, 2019-cu ildə aparılan sosial islahatlar daha çox aztəminatlı, məcburi köçkün və qaçqın, eləcə də şəhid ailələrini, müharibə veteranlarını əhatə etdi. Bu il məcburi köçkünlər üçün 5 mindən çox ev və mənzil inşa edilib. O cümlədən 800-ə yaxın şəhid ailəsi, müharibə əlilinə ev verilib. Ölkəmizdə 7 mindən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, 6 mindən çox müharibə əlilinə avtomobil verilib. Bu bir daha göstərir ki, strateji xəttə uyğun olaraq dövlətimiz 2019-cu ildə də insanların sosial rifahının yüksəldilməsi, aztəminatlı və xüsusi həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərə imza atıb".**

**Pərviz SADAYOĞLU**

# Şəhid ailələrinə və Qarabağ qazilərinə bayram sovqatı paylanıb





Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı, eləcə də ərazi ilk partiya təşkilatları tərəfindən il ərzində əlamətdar tarixi günlərdə və bayramlarda şəhid ailələri və Qarabağ qaziləri ilə görüşlərin keçirilməsi, onların problem və qayğılarının öyrənilməsi və müvafiq dəstəyin verilməsi artıq ənənə halını alıb.

YAP Nəsimi rayon təşkilatından qəzetimizə verilən məlumata görə, ənənəyə sadiq qalaraq, YAP Nəsimi rayon təşkilatı və rayon təşkilatının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi üzrə ərazi ilk partiya təşkilatı tərəfindən dekabrın 24-də 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bayram tədbiri təşkil edilib. YAP Nəsimi rayon təşkilatının binasında keçirilən tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinin birinci müavini və partiyanın ərazi ilk partiya təşkilatının sədri Anar Quliyev və YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək respublikamızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçən vətən övladlarının ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi ilə bağlı dövlət siyasətindən danışıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan nailiyyətlərdən, aparılan köklü islahatlardan ətraflı bəhs ediblər.

Tədbirdə iştirak edən şəhid ailələri və Qarabağ qaziləri onlara göstərilən dövlət qayğısına görə təşəkkür edib, Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın əhalinin həssas təbəqələrinə diqqət və qayğısından, onların problemlərinin həlli istiqamətində görülən işlərdən danışıblar. Bu siyasətin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıblar.

Təşkilatçılar tərəfindən şəhid ailələrinə və Qarabağ qazilərinə bayram sovqatı paylanıb.

**MÜŞFİQƏ**

# Moskvada Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib



Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr edilən tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Rusiya və Azərbaycanın gənclər birliklərinin, diaspor təşkilatlarının təmsilçiləri, media nümayəndələri iştirak ediblər.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev təşkilatın sədri Leyla Əliyevanın adından qonaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, 2019-cu ildə görülən işlər barədə məlumat verib. O, RAGB-nin üzvlərinin sayının ilbəil artdığını vurğulayaraq deyib ki, təşkilat Rusiyada fəaliyyət göstərən digər ictimai birliklər və ali təhsil müəssisələri ilə uğurla əməkdaşlıq edir: **"Biz birlikdə çox böyük yol keçmişik. Fəaliyyətimizə ən böyük qiyməti Leyla xanım Əliyeva verib. RAGB-nin 10 illiyi ilə bağlı keçirilən tədbirdə Leyla xanım təşkilatın zəngin keçmişinin, eləcə də parlaq gələcəyinin olduğunu söyləyib".**

Emin Hacıyev Rusiyada yaşayan və təhsil alan azərbaycanlı gənclər adından dekabrın 24-də doğum gününü qeyd edən Azərbaycan Prezidenti İlham Əliyevi təbrik edib: **"Azərbaycan gəncləri harada yaşamasından asılı olmayaraq, hər zaman dövlətimizin və Prezidentimizin diqqətini və dəstəyini hiss edib. Biz buna görə cənab Prezidentə təşəkkürümüzü bildiririk".**

Daha sonra RAGB-nin fəal üzvlərinə gənclər təşkilatının inkişafına verdiyi töhfələrə görə fəxri fərmanlar təqdim edilib.

Tədbir Rusiyada fəaliyyət göstərən incəsənət nümayəndələrinin ifasında milli musiqi və rəqslərdən ibarət konsert proqramı ilə davam etdirilib.

# Səbail rayonunda "Əbədiyyət üfüqündə doğan günəş" adlı tədbir keçirilib







Dekabrın 25-də Mədəniyyət Nazirliyi, Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı və "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın dahi mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş "Əbədiyyət üfüqündə doğan günəş" adlı ədəbi-bədii tədbir keçirilib.

Əvvəlcə iştirakçılar Muğam Mərkəzinin foyesində Nəsimiyə həsr olunmuş əsərlərdən ibarət kitab sərgisi ilə tanış olublar.

Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyinin "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" və 2019-cu il "Nəsimi ili" çərçivəsində keçirilən tədbirdə ictimaiyyət nümayəndələri, ziyalılar, Milli Məclisin deputatları, Azərbaycandakı xarici ölkələrin diplomatik korpuslarının təmsilçiləri, Səbail rayonunun ictimai-siyasi, elm-təhsil, sosial-iqtisadi, incəsənət və mədəniyyət sahələrini təmsil edən idarə və təşkilatların nümayəndələri, Yeni Azərbaycan Partiyasının fəalları iştirak ediblər.

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edilməsini Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmış Nəsimi yaradıcılığına, ümumilikdə Azərbaycan mədəniyyətinə, şeirinə, sənətinə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi kimi dəyərləndirib. Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması istiqamətindəki fəaliyyətini xüsusi vurğulayan Ş.Hacıyev deyib: **"2017-ci ilin mayında Parisdə UNESKO-nun qərargahında şairin vəfatının 600 illiyinin, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda və Şamaxı şəhərlərində, habelə Moskvada Nəsimi, şeir, incəsənət, mənəviyyat Festivalının keçirilməsi şairin yaradıcılığına göstərilən ehtiramın nəticəsidir".**

Sonra AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev, Yunis Əmrə İnstitutunun Bakı filialının direktoru Cihan Özdəmir, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi və Xalq artisti Əbdül Mahmudov çıxış edərək tədbirin keçirilməsini yüksək dəyərləndiriblər.

Sonda tədbirin rəsmi və bədii hissəsinin iştirakçılarına fəxri fərmanlar təqdim olunub.

**MÜŞFİQƏ**

# Dövlətin həyata keçirdiyi gənclər siyasəti prokurorluq orqanlarında da öz bəhrəsini verir

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən təməli qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq 2002-ci ildən etibarən gənc hüquqşünasların prokurorluq orqanlarına işə qəbulu test üsulu ilə həyata keçirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə aparılan işə qəbulun bu mütərəqqi yolu prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaradıb.

Hazırkı vaxtadək qulluğa qəbul edilmiş gənclərin prokurorluğun kadr korpusunun 70 faizini təşkil etməsi göstərilənlərin məntiqi nəticəsidir.

Təqdirəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olmuş yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən gənc prokurorluq işçilərinə yüksək etimad göstərilərək onlar müxtəlif vəzifələrə, o cümlədən rayon prokuroru, Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi və sair kimi məsul vəzifələrə irəli çəkilirlər.



Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralovun imzaladığı əmrlərlə Baş Prokurorluğun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Mehman Xankişiyevin Şəki, Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru Ramil Əliyevin isə Siyəzən rayon prokuroru vəzifələrinə təyin edilmələri ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi və prokurorluq orqanlarında aparılan kadr islahatlarının uğurudur.